## ÜMUMPEDAQOJİ PROBLEMLƏR

UOT 37

**Vidadi Ömər oğlu Orucov**
*pedaqogika üzrə elmlər doktoru*
*Bakı Dövlət Sosial-İqtisadi Kollecinin direktoru*

# BİLİYİN TƏBİƏTİ

**Видади Омар оглы Оруджев**
*доктор наук по педагогике,*
*директор Бакинского государственного социально-экономического колледжа*

# ПРИРОДА ЗНАНИЯ

**Vidadi Omar Orujov**
*doctor of science in pedagogy,*
*director of Baku State Socio-Economic College*

# THE NATURE OF KNOWLEDGE

**Xülasə.** Məqalədə bilik, biliyin yaranması, inkişafı, filosofların bilik haqqında fikirləri araşdırılmış, müxtəlif dövr filosoflarının biliklərlə bağlı düşüncələri müqayisəli şəkildə araşdırılmış və bir çox elm və fəaliyyət sahələrinin modernləşdirilməsində elmi biliklərin sistemli şəkildə həlledici təsirindən bəhs olunmuşdur.
***Açar sözlər:*** *təbiət, bilik, bacarıq, elm, texnologiya, təhsil, təhsilalanlar, şəxsiyyətyönlü təhsil, strategiya*

**Резюме.** В статье исследуются знания, происхождение и развитие знания, взгляды философов на знание, сравнительно исследуются взгляды философов разных периодов на знание и обсуждается систематическое решающее влияние научного знания на модернизацию многих областей науки и деятельности.
***Ключевые слова:*** *природа, знания, умения, наука, технологии, образование, учащиеся, личностно-ориентированное образование, стратегия*

**Summary.** The article examines knowledge, the origin and development of knowledge, the views of philosophers on knowledge, comparatively explores the views of philosophers of different periods on knowledge and discusses the systematic decisive influence of scientific knowledge in the modernization of many fields of science and activity.
***Key words:*** *nature, knowledge, skills, science, technology, education, students, student-centered education, strategy.*

Yer üzərində tərəqqi və inkişaf prosesi mövcud biliklərdən məqsədyönlü istifadəsi və yenilərinin əldə olunması hesabına təşəkkül tapmışdır. İnsanlar təbiətdə baş verən hadisələrlə birgə yaşayaraq onları müşahidə etmiş, başvermə səbəblərini məqsədyönlü şəkildə öyrənmiş, əldə etdikləri biliklərin köməkliyi ilə təbiət hadisələri haqqında bir sıra əsas məlumat və anlayışlar formalaşdırmışlar. Bu məlumat və anlayışlar bizim bütün müasir təsəvvürlərimizin, biliklər sistemimizin əsasını təşkil edir.

İnsanlar bütün dövrlərdə biliklərə önəm vermiş, onların köməkliyi ilə öz seçimlərini çoxaltmış, bacarıqlarını artırmışlar. Qazandıqları bilik və bacarıqlar hesabına növbəti məqsədlərindən birinə çatan insanlar onu daha da inkişaf etdirmişlər. Növbəti problemlərin həlli üçün isə yeni biliklərin axtarılması işini davam etdirmişlər.

Biliklər insan fəaliyyətini yönəltmiş, dövlətin və cəmiyyətin formalaşmasında, elm və tərəqqinin inkişafında müstəsna rol oynamışlar. Qədim dövrlərdən başlayaraq bir çox yerlərdə

qeyri-adi istedada malik bilik sahiblərinə xüsusi diqqət göstərilmiş, filosof, alim, xoca, müəllim deyə hörmətlə yanaşmış, dəyər vermişlər.

Dünya xalqları biliklərin öyrədilməsinə önəm və dəyər vermiş, onların daima diqqət mərkəzində qalması və təbliğ olunması məqsədilə çoxlu sayda aforizmlər, nağıllar, dastanlar söyləmişlər. Sokratın "Tək bir şey bilirəm, o da heç bir şey bilmədiyimdir" fəlsəfəsi çoxlu sayda yeni biliklərin kəşfinə təkan verdi. Konfutsinin "Bilik sahibi olmadan fikir sahibi olma" kimi çağırışları biliklərə olan maraqları zaman-zaman artırdı.

İslam dinində biliyə, bilikli adamlara xüsusi dəyər verilir. Şərqdə bu dinin yayıldığı ölkələrdə elmin inkişafı sürətləndi. Quranın "Zümər" surəsinin 9-cu ayəsində buyurulur: "De ki, bilənlərlə bilməyənlər eyni ola bilərmi?", (3) "Bilik qazanmaq hər bir müsəlmana vacibdir... Allaha sitayiş və itaət biliklə edilər. Qohumluq tellərinin qırılmaması, halalın haramdan ayırd edilməsi də biliklə mümkündür. Bilik əməlin rəhbəridir və əməl ona tabe olar", "İnsanların ən dəyərlisi daha çox bilik sahibləri, insanların ən dəyərsizi isə daha az biliyi olanlardır", "Elm öyrənin, hətta Çində olsa belə, çünki elm öyrənmək hər bir müsəlmana vacibdir", "Bilikli olmaq bütün yaxşılıqların, nadanlıq isə bütün pisliklərin başıdır" (6). İmam Əlinin (ə): "Bilik ağlın çırağıdır", "Bilik necə də gözəl yolgöstərəndir", "Bilik ailə şərafətinin ən yüksək şərəfidir", "Bilik möminin itmiş malıdır", "Heç bir şərafət bilik kimi deyil" (7) və s. kimi bir çox fikirləri bəllidir. Ağıllı insanlar əsl xoşbəxtliyi dövlətli olmaqda deyil, bilikdə, savadda görmüşlər. Xacə Nəsirəddin Tusi də: "Həmişə öyrən və öyrənməklə məşğul ol" (2) demişdir.

Böyük Azərbaycan şairi Məhəmməd Füzuli "Mətlə ül-etiqad" əsərində yazır: "Beləliklə, müxtəlif əqidə sahiblərinin təriqətləri ilə tanış oldum və onların faydalısını mənimsədim. Zaman tələb edirdi ki, bunların mövcudiyyəti qorunub saxlansın və əsrarı gizli qalmasın. Buna görə onları mühafizə etmək üçün dörd rüknü (sütunu) olan bir ev tikdim; belə ki, onun hər bir təməlində imam bağına açılan bablar (qapılar) vardır. Belə bir binanı "Mətlə ül-etiqad fi-mərifəti-l-məbdəi vəl-məad"- məad mənşə və qayıdış yerini tanımağa aid (etiqada giriş) adlandırdım. Belə ki:

Birinci rükn, elm biliyi (mərifəti) və bilik (mərifət) elmi haqqındadır.

İkinci rükn, aləmin vəziyyətlərinin biliyi haqqındadır.

Üçüncü rükn, vacibə (Tanrıya) aid bilik haqqındadır.

Dördüncü rükn, peyğəmbərliyə və ona aid olanlara dair biliklər haqqındadır" (4).

Daha sonra o bilikləri iki yerə bölərək, birincinin Tanrı ilə bağlı olduğunu, ikincinin isə insanları öyrənməli olduğunun vacibliyini qeyd edir: "Birincisi, cəhlin ardı olmayan elmdir (yəni, elə elmdir ki, ondan qabaq cahil olmamış), bu da Tanrının elmidir.

İkincisi, cəhldən sonrakı elmdir ki, bu bizim elmimizdir (yəni, insanların öyrəndiyi elmdir). Bu sonuncu, təsəvvür və təsdiq (mərhələlərinə) bölünür. Belə bir elm bilik adlanır: çünki o, bir bildirəndən (öyrədəndən) asılıdır" (4).

Biliklər gündəlik təcrübədən, hadisələri müşahidə etmək və praktik fəaliyyətin təhlilindən yaranır. Biliklərin alınmasında insan mütləq iştirak edir. Burada önəmli olan məsələyə: bilik nədir? necə əldə olunur? mənbəyi varmı və varsa nələrdir? əldə olunması yolları, gerçək hesab oluna bilərmi? harada? nə üçün? necə istifadə olunur? suallarına cavab tapmaq üçün onun fəlsəfəsini araşdırmalıyıq.

Bildiyimiz kimi, fəlsəfə ictimai şüur formalarından biri olmaqla varlığın, yəni təbiət və cəmiyyətin, insan təfəkkürünün və idrak prosesinin tabe olduğu ən ümumi qanunauyğunluqlar haqqında elmdir. "Fəlsəfə" sözündən 2500 il bundan əvvəl qədim Yunanıstanda istifadə etməyə başlamışlar. "Fəlsəfə" sözünün yaranmasını yunan alimi Pifaqorla bağlayırlar. Yunan mənşəli filo-sevgi, sofiya isə bilik, biliklər mənasını bildirən iki sözdən əmələ gəlmiş, yeni biliklər əldə edən və ya mövcud olanları araşdıran adamlara isə filosof demişlər. Qədim yunan filosoflarının fəlsəfə anlayışı ilə bağlı fərqli fikirləri mövcuddur. Sokratın fikrincə, fəlsəfə bilmədiklərimizi bilmək, "özünü tanımaq", Platona görə, həqiqi olanları bilmək, Aristotelə görə ilk olanları, səbəb və nəticəni bilmək, Epikürə görə, xoşbəxt bir həyat elmidir (5).

Sokrat kimi İslam filosofu Kindiyə görə də, fəlsəfə insanın özünü tanımasıdır. İbn Sinaya görə, fəlsəfə ən doğru və ən sağlam bilikdir; əsl hikmət bütün var olanın ilk yaranma səbəb-

lərini bilməkdir. Əbu Hamid əl-Qəzali görə, fəlsəfə şübhədir (skeptisizm). Şübhə dəqiq məlumat əldə etmək üçün fəlsəfi bir yanaşmadır. İngilis filosofu-rahibi Roger Baconnun (Rocer Bekon) fikrincə, fəlsəfənin vəzifəsi insanların xoşbəxtliyi və rifahı üçün lazım olanları etməkdir.

İtalyan Cordano Brunonun fikrincə, fəlsəfənin vəzifəsi təbiəti bilməkdir.

Elmi biliklərin tarixi ilə bağlı tədqiqatlar göstərir ki, elmi inkişaf şərqlə qərb arasında zaman-zaman yerini dəyişsə də inkişafını davam etdirmişdir. Elmi biliklər əvvəlcə Şərq sivilizasiyasında inkişaf etmiş, daha sonralar isə Yunan dünyasına köç etmiş və Qərbə keçərək mövcudluğunu əhatəli və əlaqəli şəkildə davam etdirmişdir. Elmi biliklərin inkişafının əsasən dörd mərhələyə bölünməsi elmdə bəlli məsələdir:

1. Misir və Mesopotamiya sivilizasiyaları ilə üst-üstə düşən eksperimental biliklərin toplama mərhələsi.

2. Qədim Yunanıstanda kainatı şərh etməklə bağlı sistemli biliklərin formalaşması mərhələsi.

3. Bir tərəfdən Yunan fəlsəfəsini xristian dininin təsiri ilə uzlaşdırmağa çalışan Qərb, digər tərəfdən “Elm Çində olsa belə, gedib öyrənin” deyən, elmi fəaliyyəti vacib hesab edən, yeni nailiyyətlərə yönəldən İslam dünyasının inkişaf etdiyi Orta əsrlər mərhələsi.

4. İntibah və ondan sonra başlanan inkişafların davamı olan müasir elm mərhələsi.

Müxtəlif dövr filosoflarının düşünmə tərzinin müqayisəsi göstərir ki, fəlsəfəyə ortaq bir tərif vermək mümkün deyil. Ancaq təriflərdən də göründüyü kimi, fəlsəfə ilə biliklər, elm arasında qaçılmaz bir əlaqə mövcuddur. Elmdən fərqli olaraq fəlsəfə təbiət və cəmiyyətlə bağlı gerçəkliyi bir tam olaraq qavrayıb araşdırmağa və sistemləşdirməyə çalışır. Həm də dərketmə elm aləmi ilə məhdudlaşmır, ondan kənarda da bu və digər formada ictimai şüur formalarına məxsus biliklər mövcuddur.

Fəlsəfənin elm kimi öyrəndiyi sahələr çoxdur. Onlardan bilik, elm və təhsillə daha sıx bağlı olan: Ontologiya, epistemologiya, aksiologiya və məntiq istiqamətlərinə diqqət yetirək.

Ontologiya (yunan sözü: ὄντος-var olan, λόγος- təlim) varlıq haqqında təlimdir. Varlıq sözü “var olmaq”, “mövcud olmaq”, “üzə çıxmaq”, “reallıq” və s. mənalarını verir. Fəlsəfə elmində varlığın müxtəlif formaları kimi materiya, şüur, ideyalar, hisslər, insanların fantaziyaları və sair qəbul olunur.

Ontologiya anlayışından ilk dəfə Aristotel istifadə etmişdir. Aristotelin antologiyası var olanı var olduğu kimi, ilk öncə olan nə olduğunu öyrənməkdən ibarətdir. Ontologiyanın ən önəmli sualı; “İlk olan nədir?” “hər şeyin başlanğıcı nədir?” “bütün varlıqların ilk tozu-zərrəciyi nədir?” Məna etibarı ilə eyni olan bu suallarla bağlı yunan filosoflarının hər birinin bir-birindən fərqli özünəməxsus fəlsəfi düşüncələri elmə bəllidir. Hər şeyin ilk başlanğıcının Fales su, Anaksimandr apeyron (əbədi hərəkətdə olan, sonsuz, qeyri-müəyyən, keyfiyyətsiz materiyanı ifadə etmək üçün Anaksimandrın tətbiq etdiyi anlayış Yunan dilindən Avropa dillərinə keçmişdir, hərfi mənada sonsuz, hüdudsuz dumanlı, bulanıq maddə deməkdir), Anaksimen hava, Herakl od, Pifaqor ədədlər (sayı), Empedokl torpaq, su, hava və od, Demokrit atomlar, Platon ideya, Aristotel enerjini, Dekart Tanrı, Spinoza tanrı və təbiət, Marks maddə... olduğunu hesab edirdilər. Ontologiya ayrıca olaraq Allah varmı? və ya yoxdur, insan nədir? kainat ağılla şərh olunan bir nizam içindəmi? kimi sualları da cavablandırmağa çalışır. Müasir ontologiya elmi var olanla, var ola biləcəkləri araşdırır, elmi biliklərdən düzgün formalaşması və istifadəsini əsaslandırır, elmdə cavabı tapılmayan bir çox sualların müzakirəsinə və həllinə yol açır.

Epistemologiya (yunan sözü: ἐπιστήμη – bilik, bacarıq və λόγος – təlim) – biliyin təbiəti, əhatəsi və qaynağını öyrənən fəlsəfənin bir sahəsidir. Bu termini ilk dəfə fəlsəfə elmində şotland filosofu Ceyms Frederik Feryer “Metafizikanın əsasları” (1854) kitabında işlətmişdir. Bir qayda olaraq biliklərin bir ucunda insan düşüncəsi, digər tərəfində isə həqiqət vardır.

*Bilik* nədir? mənbəyi varmı, varsa nələrdir? doğru hesab etmək olarmı? doğruluğun ölçüsü nədir? mütləq doğru olan bilik varmı?” kimi suallara cavab axtaran epistemologiyanın mövzusu əldə olunan biliklərin mütləq olub olmadığını araşdırmaqdır. Bu gün təhsildə önəmli məsələlərdən biri də təlim prosesində yeni biliklərin gətirilməsi, eyni zamanda onların kəşfi və axtarışıdır.

Aksiologiya (yunan sözü: ἀξία - dəyər, λόγος- təlim) mədəniyyətin və fəlsəfənin bir istiqaməti olaraq etik, estetik, epistomoloji insani

dəyələrin nə olduğunu öyrənən elmdir. Fəlsəfi düşüncənin təməlləri olaraq ontologiya və epistemologiyadan sonra isə oksiologiya üçüncü sahə hesab edilir. Ontologiyanın köməkliyi ilə hər hansı bir varlığın olması, epistemologiyanın köməkliyi ilə bu varlıqla bağlı biliklərin həqiqiliyini təsdiqləyirik. Aksiologiyanın köməkliyi ilə isə var olanın epistemoloji həqiqətlərindən istifadə edərək nəzəri və praktik işlər görürük.

Aksiologiya, eyni zamanda, "tərbiyəli - tərbiyəsiz, yaxşı - pis, xeyir - şər, xoşbəxtlik - bədbəxtlik, vicdanlı - vicdansız və s. kimi dəyərlərə də aydınlıq gətirir. Bundan başqa "insani dəyərlərin mənbəyi nədir, varmı və ya yoxdur, varsa onlar təbiətdən və ya insandanmı qaynaqlanır?", "əxlaqı yaxşı - pis kimi kateqoriyalara ayırarkən nələr ölçü olaraq götürülə bilər?", "bunların ölçüləri nələrdir?", "bu ölçülər həmişə belə olub, yoxsa indimi belədir?". Əxlaq insan davranışı ilə əlaqəli olduğundan, insan tərəfindən istifadə olunan bütün dəyərlər aksiologiyanın predmetidir. Yunan alimlərindən Demokrit əxlaq qurucusu, Sokrat isə əxlaq filosofu kimi tanınır.

Məntiq (yun. λογική) - mülahizələr haqqında, dərketmənin qanunları, metodları və formaları haqqında elmdir. Məntiq haqqında biliklər təfəkkürlə alındığından, onu düzgün təfəkkür haqqında elm kimi də qəbul etmək olar. Məntiq düşünmə yolu ilə bəlli olanlar arasında əlaqələr qurmaqla bildiklərmizdən bilmədiyimiz biliklərin çıxarılması prosesidir. Məntiqin əsas vəzifəsi bütün dövrlərdə eyni olub: nəticə çıxartmaq, mümkün olan hər şeyi tədqiq və analiz etməkdir.

Gündəlik həyatda olduğu kimi, elmdə də hər cür yeni bilik yalnız metodların tətbiqi ilə qazanılır. Elmlərin nəzəri hissələri fəlsəfə kimi qəbul edilə bilər. Elmi-tədqiqat laboratoriyalarında sübuta yetirilməklə qazanılan biliklər isə fəlsəfənin deyil, elmin mövzusuna çevrilir. İnsan idrak prosesi nəticəsində əvvəllər ona məlum olmayanı kəşf edir, bu yeni bilik hesab olunur. "Bilik", ilk növbədə həqiqətin insan beynində əks olunması kimi başa düşülür. Bilik – insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusudur. Bir-bir ilə sıx əlaqədə olan və məntiqi yolla biri digərindən alınan biliklər müəyyən qrup, biliklər sistemi kimi formalaşaraq müxtəlif elmlərin əsasını təşkil edir.

Bu gün elmi yollarla əldə olunan biliklər ən doğru biliklər hesab olunur. Elmi biliklərin özünəməxsus xüsusiyyətləri vardır. Bu müəyyən bir sahəyə mənsub olan elmi biliklərə dair müvafiq araşdırma və yoxlama metodunun olmasıdır. Elmi metod adlanan bu üsul həm məlumatın əldə edilməsində, həm də əldə edilən məlumatların yoxlanılmasında istifadə olunan bir vasitədir.

Elmilik dərəcəsinə görə biliklər iki yerə bölünür: elmi biliklər və elmə aid olmayan kənar biliklər. Elmi biliklərin özü də iki yerə bölünür:

-təcrübə və müşahidəyə əsaslanan empirik biliklər;

-bəlli faktlar və abstrakt modellərin analizi nəticəsində əldə olunan nəzəri biliklər.

Bütün hallarda elmi biliklər empirik və ya nəzəri yollarla sübuta yetirilməlidir. Elmdən kənar biliklərə isə elmin şərh edə bilmədiyi və ya elmi əsaslara söykənməyən bilikləri aid etmək olar. Bura ayrı-ayrı şəxslərin (ekstrasenslər, şamanlar, adətlər və s.) düşüncəsinin məhsulu olan bilikləri də aid etmək olar.

İndiki zamanda bir çox fəaliyyət sahələri modernləşir. Bu fəaliyyət sahələri insanlardan yeni biliklər və bacarıqlar tələb edir. Xüsusilə də əməyin biliklərlə əvəzlənməsi prosesi artmaqdadır. Yaxın gələcəkdə ənənəvi peşələrin yaradıcılıq və ideyaların hasilatı ilə səciyyələnən yeni fəaliyyət növü ilə əvəz olunması ehtimalını artırır. Son dövrlərdə "biliklərə əsaslanan cəmiyyət", "informasiya cəmiyyəti", "informasiya iqtisadiyyatı", "intellektual idarəetmə", "intellektual iqtisadiyyat", "intellektual idarəetmə mərkəzi" "intellektual idarəetmə sistemləri", "ağıllı robotlar" kimi terminlərin tez-tez işlənməsi təsadüfi deyildir. BMT-nin insan inkişafı Proqramında əmək - dəyər nəzəriyyəsini "biliklərə əsaslanan dəyər" ("knowledge - *value*") nəzəriyyəsinin getdikcə sıxışdırdığı qeyd olunur. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda insan kapitalının inkişafı, bilik və innovasiyalara əsaslanan inkişafı prioritet təşkil edir (1).

**Problemin aktuallığı.** Biliyin təbiətinin müəyyənləşdirilməsi aktuallığı ilə diqqət mərkəzinə gəlir.

**Problemin yeniliyi.** Biliyin təbiətinə münasibət bildirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Tusi, N. Əxlaqi-Nasiri / N. Tusi. -Bakı: Lider, - 2005. - 280 s.
3. Qurani-Kərim / V. Məmmədəliyev və Z. Bünyadovun tərcüməsi. -Bakı, -1992.
4. Füzuli, M. Əsərləri / 6 cilddə. V cild. - Bakı: Şərq-Qərb, - 2005, - 224 s.
5. Eğitim felsefesi, / prof. Dr. İbrahim Arslanoğlu, - 2019, Nobel Akademik Yayıncılıq Eğitim Danışmanlık –LTD: ŞTİ, -319 s.
6. Hüseynoğlu, İ. Alimin aləmi elmin fəziləti / İ. Hüseynoğlu. -Bakı: Avropa, - 2012. - 192 s
7. http://www.ahlibeyt.ge/islam-elimleri/3065-bilik-ve-nadanliq.html

**E-mail:** vidadi_orucov@mail.ru
**Rəyçi:** *ped.ü.elm.dok.,prof.* **A.N. Abbasov**
**Redaksiyaya daxil olub:** 20.09.2021